http://iqtisadiforum.blogspot.com/2020/08/rasim-hsnov-dovlt-budcsinin-xrclrind.html

**28 Avqust 2020**

**Rasim Həsənov: "Dövlət büdcəsinin xərclərində səmərəliliyi artırmaq üçün xərclərə nəzarət gücləndirilməlidir"**



Dövlət büdcəsinin xərclərinin optimallaşdırılması üçün potensial və imkanlar hələ də mövcuddur. Bu potensialın reallaşdırılması dərəcəsi Azərbaycan Respublikasının Dövlət Neft Fondundan transfertin məbləğinə təsir edən əsas göstəricilərdəndir.

Bu açıqlamanı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov verib. V.Gülməmmədov qeyd edib ki, yaşadığımız şərait dövlət vəsaitlərinin qənaətli və səmərəli istifadəsi ilə bağlı meyarların daha ciddi şəkildə tətbiqini tələb edir: "Ən əsası isə, bu, Prezident İlham Əliyevin dəfələrlə səsləndirdiyi və icra üçün qurumlar qarşısında müəyyənləşdirilmiş bir tələbdir. Vəsaitlərin səmərəli və qənaətli istifadəsinin təmin edilməsi yollarından biri də rəqabətliliyin təmin olunmasından keçir".

Burada büdcə xərclərinin səmərəliliyinin artırılması dedikdə nə nəzərdə tutulur? Professor, iqtisadçı-ekspert Rasim Həsənov bildirdi ki, 2020-ci ildə pandemiya və neft böhranı dövlətin büdcə gəlirlərinin azalmasına ciddi təsir göstərib. Onun fikrincə, bu baxımdan xərclərə də hər hansı bir formada qənaət olunmasına zəruri ehtiyac yaranıb. Ancaq R.Həsənov bu zəruri ehtiyacın təmin edilməsi zamanı dövlət büdcəsinin əsas funksiyalarının nəzərə alınmasının vacib olduğunu dedi: "Bu zəruri ehtiyac bir dövlətin əsas sosial funksiyalarının yerinə yetirilməsinə maneə olmamalı və dövlət büdcəsinin tənzimləyici rolunu kiçiltməməlidir. Dövlət hər hansı bir sahədə, məsələn, nəqliyyat infrastrukturunda yeni tikintilərin maliyyələşməsini dayandıra bilər. Ancaq bu, məqsədəuyğundurmu? Bilirik ki, formalaşmış iqtisadi struktura görə Azərbaycan iqtisadiyyatında fəallığı təmin edən əsas bölmə dövlət sektorudur. Dövlət sektorunda

işləyən, daha çox iş yeri açan, generasiya baxımından digər sahələrin işini canlandıran bir istiqamət infrastruktur obyektlərinin tikintisidir.
Ona görə də hesab edirəm ki, infrasturktur obyektlərinin tikintisinə ayrılan pulu azaltmağa dəyməz”.
R.Həsənov bildirdi ki, büdcə xərclərinin səmərəliliyinin artırılması deyəndə ilk növbədə səmərəliləşdirmənin meyarı müəyyən edilməlidir: “Əgər meyar kimi xərcin azaldılması başa düşülürsə, hesab edirəm ki, müasir dövrdə bundan danışmağa dəyməz.
Ümumiyyətlə, dövlət büdcənin fəlsəfəsini götürsək, onun 3 mühüm istiqamətini müəyyənləşdirmək olar.

Birinci iqtiqamət, ölkədə dövlət idarəetməsinin və sosial münasibətlərin tənzimlənməsidir. Bu istiqamətə uyğun olaraq idarəetmənin təşkili və sosial funksiyaların yerinə yetirilməsi ilə bağlı xərclər ayrılır.
İkinci istiqamət, iqtisadi dövriyyənin normal ölçülərdə olmasının dəstəklənməsidir.
Üçüncü iqtiqamət, iqtisadiyyatın bir sıra sektorlarının bilavasitə dövlətin dəstəyi ilə inkişaf etdirilməsidir.
Ölkəmizdə dövlət büdcəsi bu 3 əsas iqtiqamət üzrə istifadə edilir.

Mənim fikrimcə, dövlət büdcəsinin xərclərində səmərəliliyi artırmaq üçün xərclərə nəzarət gücləndirilməlidir. Cənab Prezident də dedi ki, dövlət xərcləmələrinə nəzarət ciddi şəkildə artmalıdır. İstərdim ki, optimallaşma deyəndə dövlət xərclərinə nəzarətin daha geniş əhatə olunması kimi başa düşülsün, bütün xərcləmələrin əsas hissəsində nəzarət təmin olunsun.
Nəzarətin də bir neçə istiqaməti var: düzgün xərcləmək, səmərəli xərcləmək və nəticəli xərcləmək. Ən vacib nəzarət səmərəli və nəticəli xərcləmək üzərində olmalıdır. İndi düzgün xərcləmək məsələsi böyük problem deyil. Elektron hökumətin olması, əməliyyatların elektronlaşdırılması xərclərin düzgünlüyünə nəzarət etməyə təminat verir. Əsas diqqət səmərəli və nəticəli xərcləməyə yönəlməlidir”.